**UOT 82.316.7**

# MULTİKULTURAL DƏYƏRLƏRİN QORUNMASI AZƏRBAYCAN HUMANİZMİNİN TƏRKİB HİSSƏSİ KİMİ

**Məlahət MƏMMƏDOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 19 oktyabr 2022; çapa qəbul edilmişdir: 30 noyabr 2022;online-da çap edilmişdir:30 dekabr 2022

Received: 19th October, 2022; accepted: 30th November, 20222; published online: 30th December, 2022

**Açar sözlər:** *humanizm, multikultural mühit, tolerantlıq, çox mədəniyyətlilik*

## Giriş

Azərbaycan hər zaman öz humanistliyi ilə dünyada seçilmişdir. Qonaqpərvərlik, başqa mədəniyyətlərin nümayəndələrinə tolerant münasibət bəsləmək bizim üçün yeni bir şey deyil, həyat tərzimizdir. Təsadüfi deyil ki, Azərbaycan dünyada çoxmədəniyyətli-multi-kultural ölkə kimi bir çox dövlətlərə nümunədir.

Multikulturalizm termini elmi ədəbiyyata təxminən XX əsrin 60-70-ci illərində daxil olmuşdur. Latıncadan tərcümədə "çoxmədəniyyətlilik" mənasını verir. Yəni burada ilk növbədə etnik, irqi, dini və mədəni müxtəlifliklər, onların əsasını təşkil edən dəyərlər nəzərdə tutulur. [1]

Azərbaycan xalqı daim öz qonaqpərvərliyi, humanizmi, sülhsevərliyi ilə fərqlənmiş, bu dəyərləri indiki dövrə qədər yaşada bilmişdir. İqtisadi-siyasi amillər, müharibələr, köçürmə siyasəti, coğrafi mühit və s. səbəblərlə buraya köçüb gəlmiş, özünə yurd yuva salmış xalqlara daim tolerant münasibət bəsləmişdir, özündən ayırmamışdır. Ümummilli lider H.Əliyev bu prosesə münasibət bildirərək deyirdi: "Multikulturalizm xalqımız üçün yeni bir şey deyil. Bu, bizim səciyyəvi cəhətimizdir". "Ölkə daxilində nə qədər çox millət yaşayarsa, o ölkənin mədəniyyəti daha da zəngin olar", fikri də Ulu Öndərə məxsusdur. [14]

## Etnik-mədəni müxtəlifliyin tənzimlənməsində qütbləşmə

Bu gün dünyada multikulturalizm siyasətinə ikili baxış formalaşmışdır. Qabaqcıl Avropa ölkələrindəki multikultural mühit dövlət siyasətindən kənarda qalmışdır. Buna əsas səbəb kimi bir çox inkişaf etmiş ölkələrdə get-gedə dərinləşən mənəvi böhranı göstərə bilərik. İkinci qütb isə Azərbaycan prezidenti İlham Əliyevin formalaşdırdığı pozitiv qütbdür. İndi hər iki yanaşmaya nəzər salaq.

İngiltərədə bir etnik qrupun – əsasən də immiqrantlar nəzərdə tutulur – mentaliteti Britaniya mədəniyyəti ilə uzlaşmırsa, o zaman cəmiyyətə inteqrasiya etmək öz mədəni köklərinin unudulması halında mümkündür. Yəni burada "yad mədəniyyətə" qarşı hörmət və tolerantlıq sadəcə olaraq, bu mədəniyyətin hakim təbəqənin dəyərlərinə uyğun olduğu halda keçərli olur. Böyük Britaniyanın sabiq baş naziri Devid Kameron multikulturalizm siyasətinin müasir dövrdə səmərəsiz olmasını ölkəsində məskunlaşmış etnik və dini

* *doktorant, Bakı Dövlət Universiteti*
e-mail: mila-mamedova@inbox.ru
*ORCİD İD*: 0000-0002-6875-6483

azlıqların cəmiyyətə inteqrasiya olunmaq istəmədikləri ilə əsaslandırırdı. Hətta belə bir qanun qəbul edilmişdir ki, 2,5 il ərzində buradakı immiqrantlar dövlət dilini öyrənməsə ölkədən deportasiya olunacaqlar [4].

Fransa dövləti də miqrasiya dalğaları ilə formalaşan etno-konfessional qrupların qarşılaşdığı problemləri, onları tamamilə fransız vətəndaşına çevirməklə həll etmək istəyir. Bəzi xristian kilsələri həyəcan təbili çalır ki, Fransa 40 ildən sonra tamamilə islam dövlətinə çevriləcəkdir. Eks prezident Nikola Sarkozi deyirdi ki, fransız cəmiyyəti öz həyat tərzini dəyişmək niyyətində deyil. O, kimlərinsə küçədə ibadət etmək, qadınların kişilərlə bir məktəbə gedib getməmək kimi məsələlərinə baxmaq fikrində deyil. Hər kəs vahid fransız cəmiyyətinin üzvü olmalıdır. Fransada etno-konfessional qrupların tanınması ətrafında gedən müzakirələr XX əsrin 80-ci illərindən başlamışdır. Bu dövrdə Fransada olan siyasi-iqtisadi problemlər ilə yanaşı Avropada gündəmə inteqrasiya və immiqrasiya məsələləri gəlmişdi. Fransa dövləti miqrantların mövcud ictimai-siyasi quruluşa inteqrasiya edilməsini nəzərdə tutan və beləliklə, multikulturalizmdən uzaqlaşan fransız "əridən qazan" modelini meydana gətirmişdi. Hal-hazırda da Fransanın yürütdüyü anti-türk, anti-islam siyasəti göz önündədir. Özünü demokratik, azad dövlət hesab edən Fransanın bu gün işğalçı Ermənistana dəstək verməsi, onların maraqlarını müdafiə etməsi reallığın əslində nə olduğunu açıq-aşkar göstərməkdədir.

Almaniya eks baş naziri A.Merkel Almaniyada multikultural bir cəmiyyətin qurulma proqramlarının tamamilə uğursuz olduğunu rəsmən bildirmişdir. Bu açıqlamadan sonra Avropada multikulturalizmin iflasa uğraması fikri daha sıx olaraq səslənməyə başladı. Merkel ayrıca Almaniyada işləyən miqrantların alman dilinə və bütövlüdə mədəniyyətinə inteqrasiya etmələrinin vacib olduğunu da xüsusi vurğulamışdır [2].

Faktlar onu göstərir ki, Avropada multikulturalizm birgə yaşam tərzi anlayışından çıxaraq sırf siyasi əhəmiyyət daşımağa başlayıb. "Annesty İnternational" təşkilatının verdiyi məlumata görə, bu günədək Almaniyada 6000-dən çox nasist qeydə alınıb, milliyyətçilər tərəfindən irqi zəmində ən azı 200-dən artıq cinayət törədilib. Belə bir fikir formalaşmışdır ki, multikulturalizmin Avropa modelinin iflasa uğramasının səbəbi miqrantların universal Qərb həyat normasına daxil ola bilməmələri, demokratik prinsipləri və insanın hüquqlarının aliliyini rəhbər tutan Avropa qanunlarının isə olduqca mülayim olmasıdır. Maraqlıdır ki, multikulturalizmin böhranı ilə bağlı səslənən bəyanatlar qlobal iqtisadi böhranla zaman etibarı ilə üst-üstə düşür. Qərbdə bir çox dairələr qlobal iqtisadi böhranın yaranması səbəbi kimi real iqtisadiyyata söykənməyən mexanizmin çökməsini deyil, miqrantların yaratdığı problemləri qabardırlar. Bu zaman mühacirlərin elitası və orta təbəqəsi tərəfindən qərbə gətirilən "intellekt" və "sərmayə" haqqında danışmaq istəmirlər. Halbuki Avropanın gələcəyi və davamlı inkişafı naminə bu nüanslar miqrantların yaratdığı problemləri dəfələrlə üstələyir [5].

**Etnik-mədəni dəyərlərin tənzimlənməsində dövlətin rolu**

Gənc Respublika olmağımıza baxmayaraq, bu gün ölkəmiz öz tolerantlığı ilə seçilir. Müasir dövrdə Azərbaycan Respublikası cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin düzgün tənzimlnməsi sahəsində örnək dövlətlərdən biridir. Təbii ki, bu şəraitin təmin olunmasında dövlətin xüsusi diqqəti danılmazdır. Azərbaycanda multikultural mühitin qorunması dövlətimizin istər daxili, istərsə də xarici siyasətinin əsas istiqamətlərindəndir. Cənab İlham Əliyevin fikirləri bunu təsdiq edir: "Azərbaycanda bütün xalqların, bütün konfessiyaların, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar və yaşayacaqlar. Heç vaxt ölkəmizdə dini zəmində heç bir qarşıdurma olmamışdır və olmayacaqdır. Hətta heç bir anlaşılmazlıq da olmamalıdır və yoxdur. Biz bu yolla gedirik və dünyaya bu yolu göstəririk" [1].

Multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda ictimai-

bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi, xüsusilə sovet ideologiyasının hökmranlıq etdiyi illərdə kifayət qədər sistemsiz və spontan mahiyyətli idi. Əslində onun bütün vacib özəllikləri mövcud idi. Tolerantlıq və mənəvi güc, milli özünəməxsusluq, bəşəri dəyərlərə açıqlıq Azərbaycan insanını multikultural bir sistemə daxil etməyə hazır idi.

Tarixdən bəllidir ki, Azərbaycan hər zaman çoxmədəniyyətli dövlət olmuşdur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi "leksikonumuzda nisbətən yeni söz olan multikulturalizm ənənələri Azərbaycanda əsrlər boyu həmişə mövcud olub. Sadəcə, müxtəlif cür adlanıb, lakin mahiyyəti dəyişməyib". Burada coğrafi faktor da önəmli rol oynayır. Bilirik ki, ölkəmiz əlverişli bir coğrafi məkanda yerləşir. Bura müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu ərazidir. Müxtəlif xalqların tarixi təcrübəsinə əsasən, belə ərazilərdə yerləşən ölkələrin xalqları müxtəlif etnik, irqi, dini və mədəni qrupların nümayəndələri ilə qarşılaşaraq onlarla iqtisadi- ticarət və mədəni əlaqəklərini inkişaf etdirmişlər. Bu isə öz növbəsində bu ərazilərdə çoxmədəniyyətli mühitin formalaşması üçün əlverişli şərait yaratmışdır. Məlum olduğu kimi, ölkəmizin ərazisi müxtəlif sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir. Buradan qədim İpək Yolu keçmiş, ölkəmizin əlverişli coğrafi məkanda yerləşməsi onun etnik-mədəni müxtəlifliyə malik olan bir cəmiyyət kimi formalaşmasında və inkişafında əhəmiyyətli rol oynamışdır.

Ulu öndər Heydər Əliyev ilk növbədə multikulturalizm siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacayıq" deyən H.Əliyev bütün sonrakı fəaliyyətini də bu sərvətin əbədi olması istiqamətinə yönəltdi [2].

Bu ənənələrin dövlət tərəfindən qorunub saxlanılması işində önəmli işlərdən biri də bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Bu, bir sıra maddələrdə öz əksini tapır: "Din və dövlət", "Bərabərlik hüququ", "Vicdan azadlığı", "Milli mənsubiyyət hüququ" və s.

Azərbaycan prezidentinin sərəncamı ilə 2016-cı il Azərbaycanda multikulturalizm ili elan olunmuş, bununla əlaqədar Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır.

**Azərbaycançılıq ideologiyasının mütərəqqi əhəmiyyəti**

Tarixin müxtəlif dönəmlərində formalaşan və inkişafı Ümummilli lider H.Əliyevin adı ilə bağlı olan "Azərbaycançılıq" ideologiyası da Azərbaycan multikulturalizminin əsasını təşkil edir. Onun əsasını milli kimliyin qorunması, saxlanması fonunda digər dəyərlərə inteqrasiya etmək təşkil edir. Bu ideologiyaya görə etnik millətçilik mahiyyət etibarilə etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmayaraq ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq nüfuzlu təşkilatlarla əməkdaşlığa xüsusi önəm verirdi. Ölkəmiz insan haqları və milli azlıqların müdafiəsi ilə bağlı bir çox beynəlxalq konvensiyalara qoşulmuşdur. Bunlardan biri kimi Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası"nı misal göstərmək olar.

Ölkəmizdə multikultural proseslərin əsasını təşkil edən hadisələrdən biri "Bakı proses"ləridir. Bu regional təşəbbüs kimi ilk dəfə olaraq, prezident İlham Əliyev tərəfindən irəli sürülmüşdür [3].

**"Bakı proseslər"i Azərbaycan diplomatiyasının uğuru kimi**

2-3 dekabr 2008-ci il tarixində Bakıda Avropa və ona qonşu regionların mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" platformalı konfrans baş tutmuşdur. Bu konfransda ilk dəfə

olaraq, on islam ölkəsinin də iştirak etməsi ilə yeni bir formatın əsası qoyulmuşdur. Bu konfransda Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi" qəbul edildi. Bununla da sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan "Bakı prosesi"nin və bu prosesin uğurla davam etdirilməsi məqsədilə Azərbaycan tərəfindən təklif edilən "Sənətçilər dialoq naminə" layihəsinin əsası qoyuldu.

2010-cu ildə isə o, regional təşəbbüsdən qlobal hərəkata çevrildi. Bunun ardınca cənab prezident 27 may 2011-ci il tarixində "Azərbaycan Respublikasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkili barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı"nı imzaladı. Fərmanda Azərbaycan Respublikasında 2011-ci ildən başlayaraq, hər iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq forumu təşkil edilməsi məsələsi qoyulur. "Bakı proses"ləri çərçivəsində respublikamız müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi edir. 2015-ci ilin yayında ilk Avropa oyunları, 2017-ci ilin mayında keçirilmiş IV İslam həmrəyliyi oyunlarını misal göstərmək olar. Bunlar istər iqtisadi baxımdan, istərsə də ölkəmizin beynəlxalq müstəvidə tanınması baxımdan çox önəmlidir. 2018-ci ildə "Bakı proses"lərinin 10 illik yubileyi keçirilmişdir [16].

**Heydər Əliyev Fondunun fəaliyyəti**

Ölkəmizin dünyada tanıdılmasında Heydər Əliyev fondunun da böyük xidmətləri vardır. Fond 2004-cü il 10 mayda prezident İ.Əliyevin sərəncamına əsasən yaradılmışdır [1]. Bu fond görkəmli siyasi xadim H.Əliyevin ölkənin sosial-iqtisadi mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək verir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ölkəmizin tolerantlıq ənənələrinin dünya miqyasında təbliğinə böyük dəstək verir. H.Əliyev Fondunun xətti ilə dünyanın bir neçə ölkəsində bu qəbildən silsilə tədbirlər keçirilir. Məsələn, birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Parisdə "Dini tolerantlıq Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda keçirilən konfrans multikulturalizmin bu və ya digər formada sıxışdırıldığı Avropanın gələcəyində öz əhəmiyyətini göstərirdi.

"Ekstremizm və terrorçuluğa qətiyyətlə yox deməklə biz cəmiyyətlərimizdə dözümlülük, sülhsevərlik, tolerantlıq dəyərlərinin təbliğinə geniş fikir verməliyik... Ayrı-seçkilik, ksenofobiya, islamofobiya, antisemitizm kimi təhlükəli amillər bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olub. Dərin multikulturalizm köklərinə malik ölkə kimi Azərbaycan qlobal arenada bu dəyərlərin təşviqi üçün vacib rolunu oynamağa hazırdır"- deyə Mehriban Əliyeva həmin konfransda vurğulayıb [15].

Azərbaycan Respublikası multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir. Bununla bağlı olaraq qanunvericiliyimizdə Vicdan azadlığı hüququ, bərabərlik hüququ, ana dilindən istifadə hüququ, milli mənsubiyyət hüququ – digər millətlərin nümayəndələrinin hüquq və azadlıqlarının təmin olunmasında böyük rol oynayır. Xarici siyasətdə dövlətimiz bu işlərin davamı kimi "Milli azlıqların hüquqlarının müdafiəsi haqqında" Çərçivə Konvensiyasına qoşulmuşdur. Öz siyasi xətti ilə Azərbaycan daim multikulturalizmi dəstəklədiyini və bunun inkişafına imkan yaratdığını bəyan edir. Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə söyləmişdir: "Multikulturalizmin alternativi yoxdur. Əgər varsa da, bu islamofobiyadır, antisemitizmdir, ksenofobiyadır, antisemitizmdir" [13].

Azərbaycan prezidenti İ.Əliyev həm də Azərbaycanın multikulturalizm modelinin olduqca dəqiq və konkret tərifini vermişdir: "...hər bir cəmiyyətin gücü onun dini və mədəni müxtəlifliyindədir... Əlbəttə, bunun üçün ənənələr lazımdır, eyni zamanda, dövlət siyasəti də lazımi səviyyədə aparılmalıdır. Azərbaycanda hər iki amil mövcuddur".

**Heydər Əliyev Fondunun fəaliyyəti**

Ölkəmizdə dövlət-din münasibətləri də uğurla tənzimlənir. Ölkəmizin ərazisində müxtəlif dinlərin nümayəndələri rahat bir şəraitdə yaşayır, heç bir ayrı seçkiliyə məruz qalmır. Onların öz dini mərasimlərini, bayramlarını qeyd etmələri üçün dövlət onlara hər cür şərait yaradır, dini abidələr tikilir və ya bərpa edilir. Tarixi yaddaşımızın nümunəsi olan qədim alban kilsələrinin qorunub saxlanılması, Bakıda və digər şəhərlərdə kilsələrin, sinaqoqun tikilməsi buna nümunədir. Bu istiqamətdə H.Əliyev Fondunun dəstəyi ilə "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində böyük işlər görülmüş, ölkə daxilində və xaricində müxtəlif dini konfessiyalara mənsub ibadət ocaqları inşa və ya bərpa olunmuş, xalqımızın tolerantlıq ənənələrinin beynəlxalq aləmdə təbliği məqsədilə foto-sərgilər də təşkil edilmişdir.

Xalqımız tarixən digər xalqlardan olan insanlara hörmətlə yanaşmış, daim onlara qucaq açmışdır. Amma bədxah qonşularımız olan ermənilər bundan istifadə etmiş, həmyerlilərimizi qovaraq öz dədə-baba torpaqlarından didərgin salmışlar. Bu da öz növbəsində XX əsrin əvvəllərində Azərbaycan multikulturalizmini təhlükə qarşısında qoymuşdur. Ölkəmiz müstəqillik əldə etdikdən sonra vəziyyət xeyli dəyişdi. Beynəlxalq səviyyədə Azərbaycan öz sözünü dedi və özünü, öz gücünü yetərincə tanıda bildi. 2020-ci ilin 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan istər diplomatik səviyyədə, istərsə də hərbi sahədə böyük irəliləyişlər əldə etdi və dünyaya öz gücünü sübut etdi. Bununla yanaşı öz humanist dəyərlərinə də sadiq qaldı. Ölkəmizdə yaşayan müxtəlif etnik azlıqların nümayəndələri də Vətən müharibəsində ürəklə iştirak etmiş, bəziləri şəhid olmuşdur.

Bu gün Azərbaycanın sosial-iqtisadi inkişafı göz qarşısındadır. Qloballaşan dünyada ölkəmizin multikultural mühitinin sağlam olması çox çətin, həm də çox önəmli bir haldır. Hal-hazırda dünyamız çox çətin bir dönəmdədir. Müxtəlif münaqişə ocaqlarının alovlanması, günahsız insanların öldürülməsi, aclıq-səfalət insan taleyini təhlükələr qarşısında qoyur. Başqa ölkələrə sığınan insanlar həmin ölkələrin cəmiyyətində, mədəni mühitində müxtəlif maneələrlə rastlaşır, ayrı-seçkiliyə məruz qalırlar. Texnoloji inkişaf özünün ən yüksək səviyyəsinə çatmış olsa da, bu inkişaf fonunda yeni növ silahlar hazırlanır, mübadilə olunur ki, bu da öz növbəsində insan gələcəyi üçün təhdiddir. Bu cür mürəkkəb bir şəraitdə Azərbaycan dövləti uğurlu siyasət aparmaqdadır.

## ƏDƏBİYYAT


1. Abdullayev K. Azərbaycan multikulturalizmi. Bakı: BBMM, 2017. 416 s.
2. Aslanova R.N. Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2017. 264 s.
3. Dini Araşdırmalar Mərkəzi. Azərbaycanda tolerantlıq ənənəsi. Bakı: "Nurlar" nəşriyyat mərkəzi, 2015. 160 s.
4. Əliyeva G.R. Dünya xalqları və çoxmədəniyyətlilik. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2018. 120 s.
5. İsmayılov G. Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz. Bakı: "Nurlar" nəşriyyatı, 2014. 240 s .
6. Multikulturalizmə giriş: Ali məktəblər üçün dərslik. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2019. 431 s.
7. Nəcəfov E.Ə. Multikulturalizmin mahiyyətinə dair. Dövlət İdarəçiliyi // Nəzəriyyə və təcrübə, 2015, №3 (51).
8. Белл Д. Грядущее постиндустриальное общество. М.: Academia, 1999. 785 с.
9. Бердяев Н.А. Смысл истории. М.: Мысль, 1990. 176 с.
10. Azərbaycanda tolerantlıq (https://azerbaijan.az/related-information/87)
11. Hümanizmin en üst zirvesi: Dünyaya Bakü örneği (http://newtimes.az/tr/organisations/5900)
12. Məmmədov S. Qlobal hərəkata çevrilmiş "Bakı prosesi" (https://multikultural.azi/)

13. Prezident İlham Əliyev: “Multikulturalizm Azərbaycanda həyat tərzidir” (https://news.milli.az/politics/398519.html)
14. Что такое мультикультурализм и следует ли его опасаться? (https://www.integration.lv/ru/)
15. Мультикультурализм: достижения и проблемы (https://bakuforum.az/)

***Резюме***

***Малахат Мамедова***

***Защита мультикультурных ценностей как составляющая часть Азербайджанского гуманизма***

Мультикультурализм – это политика, которая предусматривает и продвигает культурный плюрализм. Речь идет об уважении прав всех людей любой страны, независимо от их этнических, расовых или религиозных различий. В поликультурном обществе все граждане страны имеют равные права в развитии своей культуры, языка, традиций, этнических и религиозных ценностей. Перевод слова мультикультурализм означает «множество культур». То есть это понятие означает сосуществование людей, принадлежащих к разным религиям, языкам и расам. Азербайджан в этом смысле выделяется особо. Исторически наша страна стала родиной различных этносов. Примерами таковых являются талыши, таты, лезгины, удины, ингилойцы и другие этнические группы. Эти традиции сосуществования продолжаются и сейчас. Азербайджан является примером для многих стран своим мультикультурным образом жизни и политикой. Сегодня большинство европейских стран отказываются от идей мультикультурализма. Они связывают это с интенсивными миграционными потоками. То есть мультикультурализм в Европе сегодня достигает состояния кризиса. В качестве примеров можно привести, в частности, Германию и Францию. Наша страна преподносит мульту-икультуральную политику миру как наиболее успешную. Эти вопросы находят отражение в внутренней и внешней политике Азербайджана. Это также отражено в нашем законодательстве о защите прав и свобод проживающих в нашей стране этносов. Сегодня Азербайджан является членом многих международных организаций. Это государство, которое на мировой арене может говорить само за себя. Фонд Гейдара Алиева, Бакинский международный центр мультикультурализма проводят большую работу по популяризации духовно-нравственных идей нашего народа. В стране в этом направлении проводятся мероприятия мирового уровня. Идеология азербайджанства, сформировавшаяся в разные периоды нашей истории и развитая общенациональным лидером Гейдаром Алиевым, сыграла большую роль в развитии азербайджанского мультикультурализма. Сторонник дружбы и мира со всеми своими соседями, Азербайджан успешно применяет это как во внутренней, так и во внешней политике. Он постоянно пытается донести до мира свой истинный голос, сохраняя верность правам и ценностям человека. Если большинство стран мира последует нашему примеру в этом вопросе, прекратит оправдываться, ликвидирует религиозную национально-этническую дискриминацию, двойную политику, поддержит мир и дружбу, межэтнические конфликты в нашем мире будут потушены раз и навсегда, а невинные люди не станут жертвами.

***Ключевые слова:*** *гуманизм, мултикультуральная среда, толерантнось, многокультурность*

***Summary***

***Malahat Mamedova***

***Protectıon of Multıcultural Values as a Component Part of Azerbaıjanıan Humanısm***

Multiculturalism is a policy that provides for and promotes cultural pluralism. It is about respecting the rights of all people of any country, regardless of their ethnic, racial or religious differences. In a multicultural society, all citizens of the country have equal rights in the development of their culture, language, traditions, ethnic and religious values. The translation of the word multiculturalism means "many cultures". That is, this concept means the coexistence of people belonging to different religions, languages and races. Azerbaijan stands out in this sense. Historically, our country has become the birthplace of various ethnic groups. Examples of these are the Talysh, Tats, Lezgins, Udins, Ingiloys and other ethnic groups. These traditions of coexistence continue to this day. Azerbaijan is an example for many countries with its multicultural way of life and politics. Today, most European countries are abandoning the ideas of multiculturalism.

They attribute this to intense migration flows. That is, multiculturalism in Europe today reaches a state of crisis. Examples include Germany and France. Our country presents the multicultural policy to the world as the most successful one. These issues are reflected in the domestic and foreign policy of Azerbaijan. This is also reflected in our legislation on the protection of the rights and freedoms of ethnic groups living in our country. Today Azerbaijan is a member of many international organizations. This is a state that can speak for itself on the world stage. The Heydar Aliyev Foundation, the Baku International Center for Multiculturalism are doing a lot of work to popularize the spiritual and moral ideas of our people. World-class events are being held in the country in this direction. The ideology of Azerbaijanism, which was formed in different periods of our history and developed by the national leader Heydar Aliyev, played a big role in the development of Azerbaijani multiculturalism. A supporter of friendship and peace with all its neighbors, Azerbaijan successfully applies this both in domestic and foreign policy. He is constantly trying to convey his true voice to the world, while remaining faithful to human rights and values. If most countries of the world follow our example in this matter, stop making excuses, eliminate religious national-ethnic discrimination, double politics, support peace and friendship, inter-ethnic conflicts in our world will be extinguished once and for all, and innocent people will not become victims.

***Key words:*** *humanism, multicultural environment, tolerance, multiculturalism*

Şöbə redaktoru f.ü.f.d. Rəhimov Mütəllim Qara oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.